**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# ATİB nümayəndəsi İspaniyada Azərbaycan iqtisadiyyati ilə bağlı təqdimatla çıxış etdi

**No: 09/09/88**
**06.03.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) Layihələr və tədqiqatlar şöbəsinin baş mütəxəssisi Amin Çərkəzov İspaniyanın Madrid şəhərində İspaniya İşəgötürənlər və Sahibkarlar Konfederasiyası (CEOE) və Qara Dəniz və Xəzər Dənizi Sahibkarlar Konfederasiyaları Birliyinin (UBCCE) təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycan iqtisadiyyati ilə bağlı təqdimatla çıxış etmişdir.

Tədbirdə Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna və Rusiyadan olan nümayəndələr İspaniyalı sahibkarlara Qara Dəniz və Xəzər dənizi regionunda investisiya imkanları barədə məlumat vermişlər. 75 nəfərin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycanın İspaniyadakı səfiri Məmməd Əliyev və ATİB nümayəndəsi Amin Çərkəzov təmsil etmişlər. Tədbirdə həmçinin İspaniyanın Xarici İşlər Nazirliyi, İnfrasturktur Nazirliyi, Sənaye, Turizm və Kommersiya Nazirliyinin səlahiyyətli nümayəndələri, İspaniyanın Gürcüstandakı Səfiri, Gürcüstanın Baş Nazirinin müavini və bu ölkənin İspaniyadakı Səfiri, UBCCE Baş katibi və digər qonaqlar iştirak etdilər.

Tədbirdə sonunda CEOE ilə UBCCE arasında anlaşma memorandumu imzalanmışdır.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**